**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü il 22 noyabr tarixli 08/07s nömrəli sərəncamı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il üçün Keyfiyyət sahəsində məqsədləri

Statistika sistemində Keyfiyyətin idarə edilməsi sisteminin (KİS) işlək vəziyyətdə saxlanılması, statistik istehsal proseslərinin idarə olunmasının səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il üçün keyfiyyət sahəsində əsas məqsədləri aşağıdakılardır:

- "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı", digər proqramlar və strategiyalarda icrası 2025-ci ildə nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- Rəsmi statistika sahəsində strateji hədəflərin müəyyənləşdirilməsi məqsədilə "2026-2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsinin hazırlanması və təsdiqi ilə bağlı zəruri tədbirlərin görülməsi;
- Statistik işlər proqramında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinin təmin olunması;
- "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün zəruri tədbirlərin görülməsi;
- "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün statistik informasiya dəstəyinin göstərilməsi;
- "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-2026-cı illər üzrə Kommunikasiya Strategiyası"ndan 2025-ci il üzrə irəli gələn vəzifələrə dair tədbirlərin vaxtında və keyfiyyətlə icrası;
- Kənd təsərrüfatının siyahıyaalınması ilə bağlı nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- Mikro və kiçik sahibkarlığa dair informasiya təminatının, eləcə də seçmə statistik müayinələr əsasında əldə olunan məlumatların yaxşılaşdırılması məqsədilə mikro və kiçik sahibkarlıq subyektlərinin siyahıyaalınmasının keçirilməsi;
- Statistik İnformasiyanın Ümumi Modelinin (GSIM) tətbiqinə dair beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində işlərin davam etdirilməsi;
- Rəsmi statistikada mikro məlumatlar əsasında analitik təhlil metodlarının, məlumat elminin və süni intellektin tətbiqi imkanlarının genişləndirilməsi ilə bağlı kadr potensialının gücləndirilməsi;
- Müasir statistik modellərin tətbiqi istiqamətində işlərin davam etdirilməsi;
- Yerli statistika orqanlarının fəaliyyətinin ISO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi;
- Keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə ilkin və yekun məlumatlarda yol verilən xətaların minimuma endirilməsi, məlumatların keyfiyyətinin daha da yüksəldilməsi;
- Statistika proseslərinin və KİS-in elektronlaşdırılması işlərinin davam etdirilməsi;
- DESAP özünüqiymətləndirmə anketinin Dövlət Statistika Komitəsinin struktur bölmələri tərəfindən tətbiqi işlərinin davam etdirilməsi;
- Milli statistik təsnifatlar sisteminin beynəlxalq standartlara uyğun inkişafı üçün müvafiq tədbirlərin görülməsi;
- Metaməlumatlar sisteminin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi;
- Məlumatların və metaməlumatların aktuallığının saxlanılması, onların müvafiq standartlara uyğun formada yayılması yolu ilə daha geniş istifadəçi auditoriyasına nail olunması üçün tədbirlərin görülməsi;
- Dövlət qurumlarından əldə edilən inzibati məlumatların rəsmi statistikada istifadəsi imkanlarının genişləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi;
- İnzibati məlumatlardan rəsmi statistika məqsədləri üçün istifadə imkanlarının artırılması yolu ilə respondentlərin üzərinə düşən məlumat yükünün azaldılması;
- İstifadəçi tələbatı nəzərə alınmaqla yeni statistik məhsulların istehsalı istiqamətində müvafiq tədbirlərin görülməsi;
- Hasilat sənayesində şəffaflıq üzrə rəsmi statistika məlumatlarının ictimaiyyətə açıqlanması ilə bağlı işlərin davam etdirilməsi;
- Böhran vəziyyətləri zamanı kommunikasiya fəaliyyətinin həyata keçirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- Sorğular vasitəsilə istifadəçi tələbatının öyrənilməsi və istifadəçilərin məmnunluğunun maksimum təmin edilməsi;
- Media ilə əlaqələrin daha da genişləndirilməsi, eləcə də sosial media vasitəsilə kommunikasiya fəaliyyətinin təkmilləşdirilməsi;
- Yerli statistika orqanlarının fəaliyyətinin təhlil edilməsi və Dövlət Statistika Komitəsinin rəhbərliyinə məlumat verilməsi;
- "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə Təlimat"a uyğun olaraq informasiya təhlükəsizliyi sisteminin işlək vəziyyətdə saxlanılması, təkmilləşdirilməsi üçün zəruri işlərin yerinə yetirilməsi və bu istiqamətə diqqətin artırılması;
- Statistika sisteminin İKT avadanlığının və proqram təminatlarının davamlı olaraq yenilənməsi;
- Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın müvafiq işçi qruplarının fəaliyyət planlarında nəzərdə tutulmuş tədbirlərin Dövlət Statistika Komitəsi tərəfindən aidiyyəti üzrə icrasının təmin edilməsi;
- Beynəlxalq əməkdaşlığın genişləndirilməsi, imzalanmış saziş və memorandumlar əsasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi.